# Xitab və onun məna xüsusiyyətləri

**Sevinc HƏSƏNOVA,**
*ADMİU-nun Ədəbiyyat və Azərbaycan dili kafedrasının baş müəllimi, pedaqoji elmlər namizədi*

Xitab cümlədə ismin adlıq halında işlənib müraciət məqsədi daşıyan və heç bir qrammatik suala cavab verməyən söz və ya söz birləşmələridir. Məsələn:

1) Şairim! Aç, payla söz xəzinəni, Şeriyyət ilhama çağırır məni! (S.Vurğun);

2) Mən daha nə deyə bilərəm, yoldaş Nəsirov? (X.Hasilova)

Göründüyü kimi, yuxarıdakı cümlələrdə şairim, yoldaş Nəsirov söz və söz birləşmələri xitab vəzifəsində işlənmişdir. Onlar işləndikləri cümlələrdə digər söz və söz birləşmələri cümlə üzvləri ilə məna və məntiqi cəhətdən bağlıdır, danışanın ifadə etdiyi fikrə bu və digər cəhətdən münasibətini bildirir, cümləyə müəyyən çalar gətirir.

Xitaba aid tədqiqatlarda deyildiyi kimi, cümlədə müraciət edilməni bildirən söz və söz birləşmələri məzmunca III şəxsə aid olur.

Xitab cümlədə ifadə edilən fikrin ümumi məzmununda iştirak edir və bu zaman o formal cəhətdən cümlə üzvünə yaxınlaşır. «Belə ki, xitab çox zaman cümlənin mübtədasının ekvivalenti kimi çıxış edir. Buna görə də tamamlıq və mübtədadan çıxış edərək cümləyə xitab əlavə etmək mümkündür» (5, s.311)

Ə.M.Cavadov xitabların cümlə üzvləri ilə əlaqəsindən, cümlə üzvlərinə münasibətindən danışarkən aşağıdakı iki halı qeyd edir:

1/ Xitab cümlə ilə məntiqi cəhətdən bağlıdır. Müraciət olunan şəxs cümlənin mübtədasının, tamamlığının və ismi xəbərinin ekvivalenti deyildir. Bu , o zaman mümkün olur ki, xitab cümlədə söylənilən işin icraçısı və ya üzərində iş icra olunan obyekt deyildir. Burada, bir növ, xitab olunan şəxs işin icrasında passivdir. Danışan dinləyənə bu və digər iş, hadisə haqqında məlumat verir.

2/ Xitab cümlə ilə həm məntiqi, həm də qrammatik cəhətdən bağlıdır. Dilçilik ədəbiyyatında bu nisbi əlaqə forması adlanır. Bu qrammatik əlaqə forması şəxsə və ya kəmiyyətə görə olur (5, s.311).

Professor Y.Seyidovun xitaba aid fikirlərində də xitab və cümlə üzvü münasibətlərindən bəhs edilir. Onun fikrincə, əgər cümlədə I və II şəxslərin adları çəkilirsə və mətndən də bu adların I və II şəxsə aid olduğu məlum olarsa, o zaman yenə də həmin adları əvəz edəcək şəxs əvəzliyinə ehtiyac duyulur və beləliklə, həmin adlar cümlə üzvlüyündən çıxıb ya cümlənin xüsusiləşmiş üzvü, ya da xitab olur. Onları əvəz edən əvəzliklər isə cümlə üzvü olur (6, səh.8).

Xitaba aid yazılarda göstərildiyi kimi, xitab, başlıca olaraq, II şəxsə müraciət məqsədi ilə işlənir. Bununla belə, tərkibində xitab olan cümlələrdə II şəxsə istinad edildiyi kimi, həmin şəxs haqqında danışıla da bilər. Belə hallarda xitab məzmunca mübtədaya oxşayır. Belə olduğu halda həmin cümlələrin xəbərləri forma və məzmun cəhətdən II şəxslə əlaqədar olmur, başqa şəxslərlə işlənir;

1. Tərkibində xitab işlənən cümlənin mübtədası I şəxsə aid olur. Xəbər onunla uzlaşır. Məsələn: Mən lap karıxmışdım, ata. (Anar)

2.Tərkibində xitab işlənən cümlənin mübtədası III şəxsə aid olur. Məsələn: Oğul, Teymur nəslindən bir xatun düşmən qapısına gedib iltimas eləməyib. (F.Kərimzadə)

Xitab müxtəlif məna xüsusiyyətlərinə malikdir. Bunlardan biri onun /xitabın/ adbildirmə xüsusiyyətinə malik olmasıdır. Dilçilik ədəbiyyatında xitabların adbildirmə xüsusiyyətlərindən bəhs edilərkən üç növ göstərilir:

1.İnsan adı bildirənlər.

2.Başqa canlıların adlarını bildirənlər.

3.Cansız əşyaların və mücərrəd anlayışların adlarını bildirənlər (1, s.243-245).

Bizcə, xitabların adbildirmə xüsusiyyətlərinə görə təsnifini professor Y.Seyidovun bölgüsü əsasında bir qədər də genişləndirib belə aparmaq olar: 1. İnsanlara müraciət. 2. Heyvanlara müraciət. 3. Şəxsləndirilmiş əşyalara müraciət. 4.Təbiət hadisələrinə müraciət. 5.Yer adlarına müraciət. 6.Mücərrəd varlıqlara müraciət.

I. İnsanlara müraciət. Cümlədə ən çox insanlara xitab edilir. Bu zaman müraciət olunanı çağırmaq, bir işə təhrik etmək, fikrini öyrənmək məqsədi güdülür.

İnsanlara müraciət müxtəlif formalarda özünü göstərir.

1. İnsanlara öz adları ilə müraciət. Məsələn: Bəxtiyar, düşünək biz dərin-dərin,

Xəyallar möhtəşəm, arzular şirin. (B.Vahabzadə)

2. Qohumluq münasibətlərinə görə müraciət. Məsələn: 1) Xalacan, məni nahaq yerə aldatmağa niyə çalışırsan? (S.Hüseyn); 2) Kişi qadına əl qaldırmaz, yeznə. (İ.Əfəndiyev)

3.Vəzifə, sənət və peşə münasibətlərinə görə müraciət. Məsələn: 1) Müəllim! Qayğınla böyüyür insan! Sən əqlə, kamala qanad verirsən.(B.Vahabzadə); 2) Ay usta, bə o Lahıca necə gedib çıxırlar? (Ə.Cəfərzadə)

4. Müxtəlif münasibətlərdə edilən müraciət. Məsələn:1)Adın şərəflidir sənin, ey qadın! Dahilər anası çağrılır adın.(S.Vurğun); 2)Xanım, qapıda durmaq yaxşı deyil, buyurunuz, içəri giriniz! (S.Hüseyn); 3)Hamısı sənin özündən asılıdır, molla! (Ə.Vəliyev)

II. Heyvanlara müraciət. Bu müraciət əsasən bədii dilə aid olur. Məsələn:1)Yenə öz sürünü nizamla düzüb, Baş alıb gedirsən hayana, ceyran?(S.Vurğun); 2)Sənsiz güllər açılmasın, axar sular dayansın, Oxu, bülbül, bəlkə yarım oyansın! (C.Cabbar-



*Məlumdur ki, fikrin ifadə olunmasında söz və ya söz birləşmələri eyni dərəcədə iştirak etmir. Bunlardan bir qismi cümlənin qrammatik əsasını-fikir mənbəyəni təşkil edən baş üzvlərin formalaşmasında mühüm rol oynayırsa, bir qismi bu üzvləri müxtəlif cəhətdən izah edən ikinci dərəcəli üzvlər vəzifəsində çıxış edərək fikrin tam və aydın şəkildə əksinə xidmət edir. Lakin cümlə daxilində elə söz və ya söz birləşmələri vardır ki, onlar cümlə üzvləri ilə məna əlaqəsində olmasına baxmayaraq, qrammatik əlaqədə olmurlar. Belə söz və ya söz birləşmələri sırasında xitab xüsusi yer tutur.*

lı)

III. Şəxslənmiş əşyalara müraciət. Məsələn: 1)Bir dan ulduzutək üfüqlərdə sən, Parla, Qarabağım, yan, Qarabağım.(F.Mehdi); 2)Yenə cəlalından tutaraq xəbər Seyrinə gəlmişəm yenə, Kür çayım. (H.Arif)

IV. Təbiət hadisələrinə müraciət. Məsələn: 1) Bahar, ay könlümün həmdəmi bahar! Sən gələndə açır qapımı ilham! (M.Seyidzadə); 2) Duman, gəl get bu dağlardan, Dağlar təzə bar eyləsin.

V. Yer adlarına müraciət. Məsələn: Cənnətin qoynundasan bir bağ kimi, Hər fəsildə min gülüstan, Ordubad! (Ə.Məftun)

VI. Mücərrəd varlıqlara müraciət. Məsələn: 1)Ay dünya, nə qəribə işlərin var sənin.(İ.Əfəndiyev); 2)Gör nə etdik, çərxin dönsün, ey fələk! (M.Dilbazi)

Xitablar bəzən sinonim xarakter daşıyır. Yəni formaca müxtəlif, mənaca eyni olur. Məsələn: Ey sevimli şair, gözəl sənətkar! (M.Seyidzadə)

Xitablar yalnız müraciət məqsədi ilə işlənmir, eyni zamanda danışanın müraciət etdiyi şəxsə münasibətini də bildirir. Bu münasibət əzizləmək, məsləhət vermək, yalvarmaq, hirslənmək, əmr vermək, kin bəsləmək şəklində olur. Bu zaman xitab vasitəsi ilə müraciət edilənin xüsusiyyətləri də müəyyənləşə bilir. Aşağıdakı misallarda bunu aydın müşahidə etmək olar:

1.Əzizləmək mənasında. Məsələn: Əziz anam, əyri belin, bilirəm, Beşiyimdə əyilməkdən əyilmiş. (B.Vahabzadə)

2. Məsləhət vermək mənasında. Məsələn: Cavanlıqda hər şey olar, oğul, ancaq gərək ata – ana bilsin. (Ə.Vəliyev)

3. Yalvarmaq mənasında. Məsələn: Aydınciyim, heç bir vaxt bir arzuna qarşı durduğumu gördünmü? (C.Cabbarlı)

4. Hirslənmək mənasında. Məsələn: Ay şümür, ay yezid, ay mürtəd! Demədim sənə ki, xatanı bizdən uzaq elə?! (H.Seyidbəyli)

5.Kin bəsləmək mənasında. Məsələn: Xain, sən orduya fitnə salırsan.(S.Vurğun)

Xitablar əlavələrlə və təyinlərlə işlənir.

1.Xitabın əlavələrlə işlənməsi. Məsələn: Nizami-Azərbaycan tərlanı, Budur elin carçısı, əyilməyən vicdanı! (Ə.Məftun)

2.Xitabın təyinlə işlənməsi. Məsələn: Ömrümün-günümün qayğı çəkəni! Ey mehriban anam, böyütdün məni. (R.Kərimli)

3.Xitabın bir neçə təyinlə işlənməsi. Belə halda müraciət edilənin bir sıra əlamətləri sadalanır. Həmin əlamətləri ifadə edən sözlər xitabın həmcins təyinləri kimi çıxış edir. Həmcins təyinlər ayrı-ayrı sözlər və söz birləşmələri şəklində ola bilər. Məsələn:

Üçtelli, dördtelli, beştelli durna,
Gəl, gəl, a mənimlə birelli durna.
(B.Vahabzadə)

Xitablar şerlərdə rədif kimi işlənir və mənanın qüvvətlənməsinə müəyyən dərəcədə kömək göstərir. Aşağıdakı şer parçasına diqqət yetirək:

Ata! Bu ad bizə necə əzizdir.
Ata! Ən müqəddəs abidəmizdir.
Ata! Dilimizin qüdrəti ata!
Ata! Adımızın şöhrəti ata!
(M.Dilbazi)

Göründüyü kimi, yuxarıdakı bədii parçada ata xitabı rədif səciyyəsi daşıyır, şerdə heç bir ağırlıq yaratmır, təkrar əmələ gətirmir, əksinə, şerə gözəllik verir.

Müasir Azərbaycan dilində xitablar nidalarla da işlənir. Bundan başlıca məqsəd nidanın intonasiyasını qüvvətləndirməkdir. Məsələn: Ox, Aydın, allah eşqinə sus, mən səni bu halda görmək istəməzdim. (C.Cabbarlı)

Müasir Azərbaycan dilinə aid tədqiqatlarda xitablardan bəhs edilərkən onların mübtədaya, vokativ, adlıq və söz-cümlələrə münasibəti məsələlərinə də toxunulur. Bu, xitabların dəqiq və aydın öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Dilçilik ədəbiyyatında (1) mübtəda ilə xitabı ayıran xüsusiyyətlərdən bəhs edilir və on fərqləndirici əlamət göstərilir. Bunlardan biri(VI əlamət) bu hesab edilir ki, mübtəda başqa cümlə üzvləri ilə qrammatik əlaqə saxladığından heç bir xüsusi intonasiyaya malik olmur, yazıda isə durğu işarəsi ilə ayrılmır. Halbuki mənanın tələbinə görə iki məqamda mübtədadan sonra da fasilə edilir və yazıda müvafiq durğu işarəsi (vergül) işlədilir. Bu məqamlardan biri «o» və «bu» əvəzlikləri ilə ifadə edilən mübtədalardan, ikincisi isə, mübtədadan sonra gələn söz onun (mübtədanın) ikinci tərəfi kimi anlaşılan sözlərdən sonra fasilə edilməsi və yazıda vergül işlədilməsidir.

Mübtədada vergül işlədilməsinə aid I qaydə («o» və «bu» əvəzlikləri ilə ifadə olunan mübtədada vergüllərin qoyulması qaydası) xitablarda durğu işarələrinin işlədilməsi qaydası ilə o qədər də əlaqədar deyil və burada qarışdırma əlaməti özünü göstər- mir. Xitablarda qarışdırılan II qaydadır,

yəni mübtədadan sonra gələn söz və ya söz birləşməsi mübtədanın ikinci tərəfi kimi anlaşılan zaman mübtədada vergül işlədilməsi qaydası. Bunu aşağıdakı misallarda aydın görmək olur:

1.Müəllim, Arzuya «Dilçilik» dərnəyində məruzə etməyi tapşırdı. 2.Usta, İlhamı işə qəbul etdi. 3.Yerindən qalxan, Samirəni alqışladı.

Deməli, xitabın məna əlamətlərini düzgün başa düşmək, onu dəqiq fərqləndirmək üçün mübtədadan sonra iki halda vergül işarəsi qoyulması qaydasının nəzərə alınması da işin xeyrinə olur. Burada onu da demək lazımdır ki, mübtəda cümlədə dil vahidi kimi iştirak etməyə də bilər. Xitab isə cümlədə həmişə iştirak etməlidir, o (xitab) cümlədə yoxdursa, müraciət anlayışı da yoxdur.

Əvvəldə qeyd etdiyimiz kimi, xitab dilçilik ədəbiyyatında əsasən mübtəda ilə müqayisəli tədqiq edilmişdir. Bununla belə, dilimizə aid son araşdırmaların bəzilərində xitab vokativ, adlıq, söz-cümlələrlə də tutuşdurulur, həmin cümlə növlərinin dəqiq müəyyən edilməsi üçün əsas götürülür. Məsələn Z.Budaqova və H.Həsənovun tədqiqatlarında xitabda vokativ, adlıq, yarımçıq, söz-cümlələrin münasibəti məsələsinə toxunulur və faydalı fikirlər söylənir. Z.Budaqova yazır: «Belə xitab(məzmunca zənginləşmiş xitablar nəzərdə tutulur) nitqin yönəldiyi şəxsi ancaq adlandırmayıb, söylənilən fikrin məzmununu bildirir. Bu zaman xitab xüsusi intonasiya ilə səciyyələnir. Belə mürəkkəbləşmiş xitablar rus dilçiləri tərəfindən vokativ cümlə adlandırılır... xitab-cümlə mürəkkəb rəngarəng hissləri bildirir. Belə cümlələr mərasimlərdə çox işlənir; məsələn: Can, can, ay bədbəxt cəvanəzən /T.Şahbazi/ (5, s.283).

Z.Budaqova sözünə davam edərək göstərir ki, bu qəbil cümlələrdən xitabın xüsusi bir növü kimi bəhs edilir və onlar xitab-cümlələr adlandırılır (5, s.283).

H.Həsənov «Vokativ cümlə» adlı məqaləsində vokativ cümlə və xitab məsələsindən bəhs edərək yazır ki, Azərbaycan dilçilik ədəbiyyatında vokativ cümlə, adlıq cümlə, xitab, adlıq söz-cümlə, adlıq cümlənin, replika-xitab adlıq və söz cümlənin emosional qiymət bildirən növü, xitab-cümlə və təktərkibli cümlənin müstəqil növü kimi izah olunmuşdur (3, s.3).

Yuxarıda deyilənlərdən göründüyü kimi, xitab bir sıra oxşar əlamətlərinə görə ümumiyyətlə, söz cümlələrə /biz söz-cümlələr dedikdə adlıq, yarımçıq, vokativ cümlələri nəzərdə tuturuq/ bənzəyir. Lakin bu zahiri oxşarlıq, heç də, xitabı söz-cümlələrlə qarışdırmağa əsas vermir. Əvvələn, ona görə ki, xitab sadə cümlənin tərkibinə aid olan söz və ya söz birləşmələridir, adlıq, yarımçıq, vokativ cümlələr isə cümlə növüdür. Deməli, bəzi dilçilərin göstərdiyi kimi cümlə ilə sözü və ya söz birləşməsini eyniləşdirmək olmaz. İkincisi, xitabda cümləyə xas olan əlamətlərdən ən başlıcası-predikativlik bildirməsi /fikir ifadə etməsi/ yoxdur. Xitab cümlənin tərkibində cümlə üzvlərinə, əlavə və xüsusiləşmələrə qoşulur, fikrin ifadəsinə bu və ya digər dərəcədə xidmət edir.

## Ədəbiyyat


1.Abdullayev Ə.Z., Seyidov Y.M.,Həsənov A.Q. Müasir Azərbaycan dili. Sintaksis, IV hissə, Ali məktəblər üçün dərslik, Bakı, «Maarif» nəşriyyatı, 1985.
2.Azərbaycan dilinin qrammatikası. II hissə, Bakı, Azərbaycan SSR EA nəşriy-yatı, 1959.
3.Azərbaycan dilində sintaktik konstruksiyalar. Bakı, ADU nəşriyyatı, 1987.
4.Müasir Azərbaycan dili. Sintaksis, Bakı, ADU nəşriyyatı, 1959.
5.Müasir Azərbaycan dili. III hissə, «Elm» nəşriyyatı, 1981
6.Seyidov Y.M. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər. Bakı, ADU nəşriyyatı, 1958.
7.Şahbazova Z. Müasir Azərbaycan dilində ara söz birləşmələri. Bakı, ADU nəşriyyatı, 1985.
8.Tağızadə Z.X. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı, APİ nəşriyyatı,1960.


**ADMİU-nun Ədəbiyyat və Azərbaycan dili kafedrası tərəfindən təqdim edilib - 27.02.2007.**
**Rəyçi: filologiya elmləri namizədi, dosent G.Əliyeva.**

## Salutation and its singinficance pecularities

## Summary

Salutation is used in the nominative case of the noun and convey proclamation meaning in the sentence. Salutation and its singinficance pecularities have been analysed in this article.